iki sahil 2020.- 10 oktyabr.- S.29.

# HÜSEYN CAVİD VƏ MİLLİ UŞAQ ƏDƏBİYYATI XƏZİNƏSİ

**XX əsr Azərbaycan uşaq ədəbiyyatının inkişafında xüsusi xidməti olan sənətkarlardan biri də Azərbaycan romantik şeirinin banisi Hüseyn Caviddir. Onun bu janrda fəaliyyəti təsadüfi olmamışdır. Yaradıcılığında uşaq əsərlərinə əhəmiyyət verməsi, XX əsrin əvvəlində Azərbaycanda milli məktəblər şəbəkəsinin nisbətən genişlənməsi və ana dilində dərsliklərin uşaqlar üçün oxu materiallarının yoxluğu ilə əlaqədar idi.**



**Kamal Camalov,**
*Naxçıvan Müəllimlər İnstitutunun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi*

Uşaq ədəbiyyatının tematikası H.Cavid yaradıcılığında nə qədər müxtəlif olsa da, bu sahədə onun əsərləri zahirən nə qədər dağınıq və sistemsiz görünsə də onlar öz məzmunu etibarilə vahiddir, tərbiyəvi mənasına görə bir-birini tamamlayır və inkişaf etdirir, onlarda daxili birlik və məqsəd aydınlığı vardır.

H.Cavidin uşaq və yeniyetmələr üçün yaratmış olduğu səmimi, sadə, təbii lirik şeirləri öz maraqlılığı, həyatiliyi, tərbiyə, təhsil nöqteyi-nəzərdən faydalılığı cəhətdən əhatəlidir. Onun Azərbaycan uşaq ədəbiyyatının qızıl fonduna daxil edilmiş, indi də uşaqların dillər əzbəri olan "Qız məktəbində", "Sevinmə, gülmə quzum", "Öksüz Ənvər", "İlk bahar", "Çiçək sevgisi", "Qoca bir türkün vəsiyyəti", "Hərb və fəlakət", "Kiçik sərsəri" və s. orijinal şeirləri uşaq yaşına və psixologiyasına uyğun olaraq onlarda dünyagörüşünün, əqlin, təfəkkürün, bədii zövqün və təxəyyülün formalaşmasına təsir edir. H.Cavidin uşaq ədəbiyyatı sahəsində müvəffəqiyyətlə çıxış etməsi, onun uşaq əsərlərinin maraqlı, cəlbedici, uşağın psixologiyasına uyğun olması ondan irəli gəlir ki, H.Cavid bir şair, dramaturq olaraq qalmamış, həm də yüksək pedaqoji ustalığa malik bacarıqlı bir müəllim olmuşdur. Nakam ömrünün axırına kimi müəllim işləyərək gənc nəslin təlim-tərbiyəsinə xidmət etdiyindən uşaq psixologiyasını daha dərindən öyrənmiş və onların yaşına müvafiq əsərlər yaratmışdır.

Öz uşaq ədəbiyyatı ilə H.Cavid uşaqlarda ideyalılıq, həyatilik, doğruçuluq, yüksək bədiilik, zəngin bədii təxəyyül və s. kimi əxlaqi keyfiyyətlər tərbiyə etməyə çalışmışdır. Uşaqları yormadan, onları darıxdırmadan ədəbiyyat vasitəsilə onlara bilik vermək və tərbiyə etmək Cavidin arzusu olmuşdur. Şair uşaqları uydurulmuş sayıqlamalarla aldatmağın əleyhdarı, həyat həqiqətlərinin uşağa şərh edilməsinə tərəfdar idi.

Qeyd edək ki, H.Cavid pedaqoji-metodik fikir tariximizdə dərslik müəllifi kimi də tanınır. Bildiyimiz kimi, XIX əsrin axırları - XX əsrin əvvəllərində milli dərslik kitablarımız yox dərəcəsində idi. Dərslik kitabları yazmağa təşəbbüs göstərən şair və ediblərimiz Abdulla Şaiq və Hüseyn Cavid olmuşdur. Təsadüfi deyildi ki, 1919-cu ildə əməl dostları A. Şaiqlə H.Cavidin birgə yazdığı "Ədəbiyyat dərsləri" adlı dərslik kitabçası pedaqoji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, müəllim və şagirdlərin istifadəsi üçün yararlı hesab edilmişdir. Bu tədris vəsaiti uğurlu nəşr idi. Müəlliflər Azərbaycan Xalq Cümhuriyyətinin "Hökumət mətbəəsi"ndə nəşr olunmuş dərslikdə dövrün ictimai sifarişlərini və pedaqoji tələblərini gözləməyə çalışmış və demək olar ki, buna nail olmuşlar.

Fikrimizcə, H.Cavidin uşaq şeirlərini məzmun-mündəricə baxımından iki qismə ayırmaq olar: birinci qisim şeirlərində bu sahənin klassikləri kimi H.Cavid də uşaqların ətraf aləm haqqında tanışlığı, bilik və təsəvvürlərinin genişləndirilməsinə çalışır. Məsələn, "İlk bahar" və s. şeirlərində olduğu kimi. İkinci qisim şeirlərində isə daha çox özünün pedaqoji baxışlarını - tərbiyə haqqında fikirlərini ön plana çəkir. Məsələn, "Öksüz Ənvər", "Qız məktəbində" və s. şeirlərində olduğu kimi.

H.Cavid çılpaq nəsihətə, didaktizmə yol verməmək üçün şeirlərini həyati hadisələr əsasında yazmışdır. "Öksüz Ənvər" şeirində oxuyuruq: Budur, oxuduğu sinifdə həmişə dərsdə və əxlaqda birincilik qazanan doqquz yaşlı balaca Ənvər neçə gündür ki, dərsdə susur, danışmır: dindirəndə də sel kimi göz yaşları tökür, hıçqırıqlara boğulur. Ənvər çoxdandır ki, atadan yetim qalmışdır. Üç ay var ki, yeganə ümidi olan anası da sönmək üzrədir. Ənvər hər sabah dərsə davam edir, ancaq fikri, xəyalı anasının yanında qaldığından müəllimin söylədiklərini eşitmir, "bir şey anlamayır":

*Dalıb, dalıb gediyor, dərs için, vəzifə için,*
*Toqat yeyirsə də biçarə susmuş, ağlamayır.*

Artıq səkkiz gündür ki, Ənvər dərsə getməyir. Artıq anasını itirdiyindən hər gün məzarı üstündə ağlar, sonra bayğın hal keçirər. Müəllimə gəldikdə isə, Ənvər onu yalnız bir şagird kimi maraqlandırır. Əgər şagird verilən tapşırıqlara əməl etməyibsə, məlum səbəblər üzündən belə dərsə gəlməyibsə, müəllimin nəzərincə tənbehə layiqdir. Bəs bir insan, canlı varlıq və psixoloji-ruhi orqanizm olaraq Ənvəri duymaq, onun pərişan əhval-ruhiyyəsinə aşina olmaq, təsəlli etmək lazım deyilmi:

*Sorar sinifdə müəllim o kimsəsiz cocuğu,*
*Qızar da söylənərək hər gün arxasınca onun;*
*"Aman, nasıl yaramaz! Bax, bu həftə keçdi dəxi*
*Nə bir xəbər, nə bir iz var? Demək o bir çapqın..."*

Şair şeiri ürək yaxan, qəlb titrədən aşağıdakı sonluqla bitirir:

Yarınkı gün o soluq çöhrə pürməlali təb,
Sinifdə ərzi-vücud etdi. Dərsə başlanacaq
Müəllim əksi, çatıq üzlə püritabü qəzəb,
Görüncə Ənvəri, qaldırdı:
- Ey Cocuq, mənə bax!
Sən, iştə hanki cəhənnəmdə, söylə, nerdə idin?
Düşünmə, söylə!
- Əfəndim, şey...
-Ah, dəni, yaramaz!
Nasıl da bax dalıyor, sanki tülküdür qurnaz!..
Cocuqcığazda cavab: iştə bir sükuti-həzin...
Gözündə dalğalanır incə bir bahar buludu,
O həp baxıb duruyor, yoxdur onda hiylə və suç...
Sükuta qarşı müəllim qəzəblə bir, iki, üç
Toqatlayınca, cocuq bircə kərrə hıçqırdı;
"Aman, vay, annəciyim!..", sonra qəşş olub getdi;
Bu səs sinifdə olan cümlə qəlbi titrətdi.

Göründüyü kimi, bu parçada təsvir olunan müəllim də, sinif də köhnə cəmiyyətin müəllimi, şagird kollektividir. Müsibətlərə düçar olmuş balaca Ənvərin dərdindən, ələmindən nə müəllimi, nə də şagird yoldaşları xəbər tutur. Səkkiz gün dərsə gəlməyən Ənvərlə maraqlanmırlar. Onu heç kəs duymur, üstəlik, patriarxal rejimin sərt, kobud tərbiyə üsullarından əl çəkməyən müəllimin yaramaz hərəkətləri Ənvəri daha da sarsıdır. Bu cavablar, nalayiq sözlər, "toqatlar" məktəbli şagirdin ürəyinin dərinliklərindən gələn hıçqırıqlara, göz yaşlarına və nəhayətdə, "qəşş olub" getməsinə səbəb olur.

H.Cavidin bilavasitə məktəblə bağlı olan şeirləri içərisində "Qız məktəbində" adlı şeiri də diqqəti cəlb edir. Cavid Gülbahardan sorduğu suallara dəyərli və məntiqli cavablar alır. Şeirin məzmunundan aydın olur ki, Gülbaharın atası "bəyzadə"dir. Müəlliməsi tərəfindən Gülbara elə aşılanıb ki, qızcığazın heç bir varda, dövlətdə, qızılda gözü yoxdur. Gülbahar müəlliməsinin söylədiyi kimi, "bir qızın, ancaq bilgidir, təmizlikdir ziynəti" sözlərini şüar tutaraq məhəbbətinin allaha, onun göndərdiyi elçilərə, ataanasına, müəlliməsinə və ən nəhayətdə bütün insanlara olduğunu açıqlayır:

Müəlliməm hər gün söylər: "Onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti".
- Pək doğru söz. ...Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylərmisin?
- Ən çox sevdiyim ilkin
O allah ki, yeri, göyü, insanları xəlq eylər.
- Sonra kimlər?
- Sonra onun göndərdiyi elçilər.
- Başqa sevdiklərin nasıl, yoxmu?
- Var...
- Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar...

Qeyd etdiyimiz kimi, məktəblə valideynlər arasında bu kimi sıx əlaqə yaradılmalı, vahid tələblər sistemindən yanaşılmalıdır.

"Sevinmə, gülmə, quzum!" adlı şeirində isə H.Cavid insan şəxsiyyətinin təşəkkülündə tərbiyənin rolunu yenə yüksək qiymətləndirir. Şeirdə qeyd edilir ki, birinə ağır fəlakət üz verərsə, belə hala sevinmək lazım deyildir. O, "zavallıların", "bikəslərin" qəlbinə toxunmamağı məsləhət edir.

Sevinmə, gülmə, quzum, kimsənin fəlakətinə;
Bu hal, əvət, eyi bir şey deyil, sevinmə, saqın!
Sevinmə başqasının hali-pürsəfalətinə,
Toxunma qəlbinə bikəslərin, zavallıların.
Toxunma ruhum! Əvət, kinlidir fələk, bir gün...
Qızar, həmən gücənib intiqam alar səndən.
Bu gün gülən yarın ağlar, saqın öyünmə, düşün!
Düşün də munis ol! İncitmə, qırma kimsəyi sən!..

Göründüyü kimi, şair-müəllim uşaqları yoldaşlıqda, dostluqda möhkəm olmağa, biri-birilərinin qəmlərinə, sevinclərinə şərik olmağı, tən olmağı məsləhət edir.

Qeyd etmək lazımdır ki, H.Cavidin uşaq şeirləri nəinki uşaqlar üçün tərbiyə məktəbidir, eyni zamanda, yaşlı nəsli də dərindən düşündürməyə sövq edir, onların əxlaqına, mənəviyyatına qida verir. Heç təsadüfi deyildir ki, şair-müəllimin uşaq şeirləri dəfələrlə Abdulla Şaiqin hazırladığı milli uşaq dərsliklərində, o cümlədən "Türk çələngi", "Qiraət kitabı", "Türk ədəbiyyatı" kimi milli dərslik kitablarında nəşr edilmişdir.

Bütün bu deyilənlər göstərir ki, H.Cavidin gənc nəslin təlim və tərbiyəsində uşaq ədəbiyyatının əhəmiyyətini aydın dərk etdiyini, onun yaradılması üçün məhsuldar çalışdığına sübutdur.

Yekun nəticə olaraq qeyd edək ki, Hüseyn Cavid gənc nəslin tərbiyə olunmasında uşaq ədəbiyyatına böyük əhəmiyyət vermiş, nəinki sözdə, hətta pedaqoji fəaliyyəti illərində də uşaqlar üçün necə yazmağın lazım olduğunu əyani olaraq göstərmişdir. H.Cavid tərəfindən yaradılmış uşaq ədəbiyyatı təsadüfi söylənilmiş fikirlər yığını deyil, müntəzəm şəkildə şərh edilmiş pedaqoji ideyalar sistemidir. H.Cavidin uşaqlar üçün yazıb yaratmış olduğu əsərlər müəyyən bir məqsədə yönəldilmişdir. Həmin əsərlərin yazılmasında uşaq psixologiyasının xüsusiyyətləri nəzərə alınmışdır. Bildiyimiz kimi, XI sinif şagirdlərinin dərsliklərində Hüseyn Cavidin əsərləri tədris edilir. Arzu edərdik ki, ibtidai sinif şagirdlərinin də dərsliklərində böyük ideallar şairinin şeirləri öz əksini tapmış olsun.